- Zaman, məkan və insan şüuru və insan şüuru ideyasının dünyəvi dərrakəsi, empirik və nəzəri materialın ümumiləşməsi, insan varlığının planetdə mövcudluğunu məqsədlərinin və mənasının açılması üçün mühümlüyü;
- Fəlsəfi ideyaların müasir cəmiyyətin problemlərinin nəzəri işlənilmə və praktiki həlli üçün əhəmiyyət dəyəri.

*Mövzunun işlənilməsi:* Amerikan mədəniyyətinin tarixində Vulfun əhəmiyyətli rolunu və Qərbdə onun populyarlığının miqyasını onun yaradıcılığına həsr olunmuş tədqiqat işləri sübut edir. Çox saylı tədqiqatlar arasında Q. Donald, E.Tembel, D.Borland, D. Bents, A. Muazi, D. Streync, D. Flor, D. Şneyder, R.Kennedi, M. Melloni və başqalarının işlərini aid etmək olar. Rus dilində olduqca məhdud sayda işlər mövcuddur. Buraya Y.A. Kidskinin, M. Qaysmarın, B.A. Gilensonun, A.M. Zverevin, N.A. Şogunsukovanın işləri daxildir.

Azərbaycan ədəbiyyatşünaslığında yalnız T. Məmmədin məqaləsi və Vulfun Azərbaycan dilinə tərcümə olunmuş bir hekayəsi var. Ona görə də Tomas Vulfun misilsiz dəyərli irsi kimi heç də sadə olmayan materialın öyrənilməsi ciddi yanaşma tələb edir.

*Tədqiqat obyekti.* Vulfun yaradıcılığında avtobioqrafizm janrı və məkan və zaman konsepsiyasıdır.

*Tədqiqatın məqsədi və vəzifələri.* Bu iş yazıçının fərdi sistemini aşkar etmək və başa düşmək üçün əhəmiyyətli nəticələrə gəlmək məqsədilə avtobioqrafizmin xüsusiyyətlərini aşkara çıxarmaq məqsədi güdür. Bu məqsəd aşağıda sadalanan vəzifələrin həllini tələb edir:

- milli ədəbiyyat kontekstində avtobioqrafizmin əsas xüsusiyyətlərini aşkara çıxarmaq;
- müəllifin avtobioqrafizmlə onun bədii duyumu arasında daxili, həqiqi əlaqənin aşkara çıxarılması;
- Vulfun zamanların qırılmaz əlaqəsi ideyası ilə başlı olan, səbəb və nəticə münasibətləri ilə şərtləndirilmiş olan, özündə keçmişin və gələcəyin elementlərini və onu təzahür formalarının təcəssüm etdirən zaman konsepsiyasının spesifikliyinin nəzərdən keçirilməsi;
- Vulfun fəlsəfi təfəkkür tərzini ifadə edən üslub qaydalarının öyrənilməsi.

*Dissertasiyanın nəzəri əhəmiyyəti* onda avtobioqrafizm xüsusiyyətlərinin və məkan və zaman əlaqələrinin əsasında zaman konsepsiyasının öyrənilməsinə yanaşmanın ən konkret prinsiplərinin işlənilməsindədir.

Müəllifin proqram əsəri tam bir məfkurəvi-bədii sistem kimi — müəllifin dünyagörüşünün qarşılıqlı şərtlənməsi, onun estetik baxışlarının və tetralogiya anlayışı daxilində müasir qərb ədəbi prosesinin əsas inkişafı tendensiyalarının kontekstində nəzərdən keçirilir.

Tədqiqatın *elmi yeniliyi* yaradıcılıq təkamülü, dünyanın dərk edilməsinin və Vulfun yaradıcılıq metodunun ikili xarakterini nəzərə almaqla avtobioqrafizm probleminin aşkara çıxarılması, habelə məkan və zaman və səbəb və nəticə əlaqələri kimi mürəkkəb kateqoriyaların və onların aparıcı alim fiziklərin tədqiqatları bazasında müasir elmi paradiqmalarla əlaqələndirilməsinə dair fundamental fəlsəfi müddəaların formalaşdırılmasındadır.

*Tədqiqatın metodologiyası,* birincisi, avtobioqrafizmin spesifikası ilə diktə edilir. Avtobioqrafiya janrı sahəsində nəzəri-ədəbi tədqiqatların təhlili bu janrın geniş və dar mənada təyin edilməsindən bəhs etməyə imkan verir. Avtobioqrafiyanın bədii nəsrə aid olması, sənədli və ya sintetik hekayə olub-olmağı sualına cavab vermək – bu janrı sözün geniş mənasında təyin etmək deməkdir. Onun mahiyyətinin və sosial-fəlsəfi aspektlərini avtobioqrafiya janrı sahəsində təhlil etmək nəzəri-ədəbi tədqiqatları təhlil etmədən mümkün deyil. Ona görə də göstərilmiş müddəalar həm işin

strukturunda, həm də bu və ya digər sosial-fəlsəfi müddəaların açılmasında istifadə edilir.

Tədqiqatın əsasında poetikanın sistemli təhlili daxilində avtobioqrafizm probleminin prinsiplərinin müqayisəli-tarixi təhlili metodu durur.

*İşin praktiki əhəmiyyəti* onda olan ümumi nəticələrin və konkret müşahidələrin xarici ədəbiyyat və ədəbiyyat nəzəriyyəsi fənni üzrə ali məktəb kurslarının, xüsusi kursların, xüsusi seminarların oxunmasında istifadə edilə bilməsindədir.

*Müdafiəyə çıxarılan müddəalar:*

1. Tomas Vulfun yaradıcılığında avtobioqrafizm problemi;
2. Görkəmli alim-fiziklərin sonuncu tədqiqatları fonunda məkan və zaman konsepsiyası;
3. Tomas Vulfun romanlarında sosial gerçəkliyin haşiyəsinin genişlənməsi;
4. Yazıçının romanlarında dünyəvi problemlərin əks olunması və onun incəsənət konsepsiyası.

*İşin təsdiq edilməsi.* Dissertasiyanın əsas elmi-nəzəri müddəaları və nəticələri Azərbaycan Dillər Universitetinin kafedrasının iclaslarında, elmi seminarlarda təsdiq edilmiş, habelə 7 nəşrdə öz əksini tapmışdır.

*İşin strukturu.* Dissertasiya işi girişdən, 3 fəsildən, yekundan və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi 118 səhifədən ibarətdir. 93 adda ədəbiyyatdan istifadə olunmuşdur.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzu seçimi əsaslandırılır, işin aktuallığı və yeniliyi, məzmunun işlənilməsi müəyyən edilir, dissertasiyanın metodoloji əsası formalaşdırılır, habelə işin strukturu dəqiqləşdirilir.

"Vulfun estetik və ədəbi ideyalarının təcəssümü" adlı birinci fəsil iki alt fəsildən ibarətdir.

"Amerikan ədəbiyyatı kontekstində avtobioqrafizmin rolu haqqında" adlı birinci alt fəsil ABŞ-ın milli ədəbiyyatı fonunda avtobioqrafizmin xüsusiyyətlərinin şərhidir. Burada avtobioqrafiya janrı sahəsində nəzərə-ədəbi tədqiqatlarının təhlili verilir. Son onillikdə ərzində sənədli və bədii-sənədli ədəbiyyata olan güclənmiş maraq ədəbiyyatşünaslıq təhlilinin hüdudlarını genişləndirmiş, ora ənənəvi olaraq onun hüdudları xaricində

qalan gündəliklər, tərcümeyi-hallar, memuarlar, avtobioqrafiyalar, məktublar, salnamələr kini əsərləri daxil edə bilmişdir. Lakin bu sadalanan janrların əsərlərinin oxunması mütəxəssislər üçün böyük çətinlik törədir, çünki onların poetikasının təhlili hələ ki, işlənilməmişdir. Bununla belə, sənədli və bədii-sənədli janr əsərlərində şəxsiyyət eynilə bədii əsər janrındakı kimi dərin və hərtərəfli açıla bilər. Buna misal olaraq Tomas Vulfun proqram əsərini göstərmək olar. Bu halda Vulfun tetralogiyası – müəllifin zəngin həyat təcrübəsindən, onun ətraf aləmlə təmasından bəhs edən tərcümeyi-haldır.

Bizim tədqiqatlarımızın obyekti avtobioqrafiya janrının əsərləri olduğundan, onun xüsusiyyətlərini nəzərdən keçirməyə çalışmalıyıq. Avtobioqrafizm janrının nəzəri məsələlərinə yalnız nəzəriyyəçilər deyil, həm də təhlil üçün tərcümeyi-halı seçən ədəbiyyat tarixçiləri də müraciət edirlər. Bu məsələyə baxışın ziddiyyətliyi, bəzən isə avtobioqrafiya janrının bir çox nəzəri məsələlərinin öz həllini tapmamağı, zənnimizcə, bu məsələnin mürəkkəbliyi ilə izah olunur. Avtobioqrafiya, şəxsiyyəti əks etdirən janrlardan fərqli olaraq, bu şəxsiyyətin daxili aləminin və xarici qarşılıqlı əlaqələrinin inkişaf etdikcə mürəkkəbləşir. Müasir avtobioqrafiya janrında daim gedən dəyərlərin təkrarən qiymətləndirilməsi bu janrın çoxüzlü olması ilə – onun həm belletristika və publisistikaya, həm tarixə, həm də psixologiyaya yönəlməsi ilə mürəkkəbləşir.

Tomas Vulfun avtobioqrafik yaradıcılığının tədqiqində təkidli zərurət bizə həm də ona görə qanunauyğun gəlir ki, elmin və incəsənətin istənilən sahəsi spesifikliyi çərçivəsindən kənara çıxaraq tez-gec elmi-fəlsəfi və kulturoloji refleksiyaya[7] gətirib çıxarır. Belə ki, avtobioqrafiya janrının xüsusiyyətlərinin fəlsəfi cəhətdən dərk edilməsi, elmi tədqiqatların fərqli hüdudunu açır.

Amerika ədəbiyyatı tarixində avtobioqrafiya janrı həmişə böyük əhəmiyyətə malik olub – bir çox tanınmış amerikalılar öz unikal həyat tarixçələrini dünyaya bəyan etmək üçün ona müraciət etmişlər. Bizim fikrimizcə, amerikalıların həm müəllif, həm də oxucu kütləsinin avtobioqrafiya janrına olan marağının onların ənənəvi xüsusiyyəti olduğunu söyləsək, yanılmarıq. Lakin Tomas Vulfun öz şəxsi avtobioqrafiyasını yaratmaq can atması Birləşmiş Ştatlarda yalnız belə növ janrın populyarlığı

---

[7] Журбина Е.И. Теория и практика художественно-документальной литературы. М.: 1965, 150 с.

ilə izah olunmur. Onun üçün "avtobioqrafiya" anlayışı ayrılıqda götürülmüş insanın taleyi haqqında ənənəvi hekayədən qat-qat genişdir. Bu müəllifin tarixi dərk etmənin təbiəti haqqında fəlsəfi təsəvvürləri ilə bilavasitə bağlıdır.

Birinci fəslin ikinci alt fəslində Yudjin Qrantın "milli özünüdərk" probleminin yaranmasında şəxsiyyətin mənəvi aləmi ilə burjua Amerikasının mənfəətpərəst məqsədləri arasında münaqişə nəzərdən keçirilir. Birinci romanda bu münaqişə ailədə dramatik dağılma kimi formalaşmışdı: gənc Yudjin Qrantın poetik təbiəti, güclü yaradıcılıq ruhu onun anası Elizanın norma olaraq qəbul etdiyi tamahkar həyat tərzi ilə qarşı-qarşıya durur. Əyalət şəhərciyinin, XX əsr Amerikasının ictimai həyatının arasıkəsilməz və özünüməhvə aparan varlanma ehtirasına tutulmuş bu hüceyrəsinin həyatı fonunda mübarizə başlayır. Yazıçı yanlış həyat məqsədlərinin insanı əşyaların əsirinə çevirərək onu necə öldürməsini göstərir.

Yudjinin elə bil ki, onun həyata gəlməsindən qabaq müəyyən olunmuş hisslərinin tərbiyə olunması, romanda epik səslənməyə nail olaraq, özünəməxsus "odiseya"ya çevrilir. Qəhrəmanın vəziyyətinin faciəviliyi onunla qeyd olunur ki, o böyük və çətin ailədə sonuncu uşaqdır – sanki mütləq öz qardaşlarının bədbəxt taleyinin təkrarlamalıdır.

Zamanın arasıkəsilməz axını və onun ümumiyyətlə insanların və xüsusilə də Yudjinin həyatında əks olunması - romanın əsasıdır. Lakin Yudjin çox az dəyişir. Onun obrazı hisslərin tərbiyəsinin[8] fərdi xətti ilə məhdudlaşır. Onun xarakterinin inkişafı hadisələrə tamamilə müvafiq gəlmir, ona görə də romanda dəfələrlə təkrarlanan qatarın hərəkəti və gur çayın axını ilə spesifik paralellər kifayət qədər inandırıcı görünmür. Buna baxmayaraq, kitabın elə ilk səhifələrindəcə yeni planlar, yeni xüsusi qeydlər meydana gəlir.

Ciddi ictimai problemləri qabardaraq, kapitalizm dünyasını gəmirən fərdiyyətçiliyin ümumi mənzərəsini canlandıraraq, Vulf özü çıxılmaz vəziyyətə düşür, Yudjinin başına gələnlərin sosial kökünü hiss edir, lakin onları anlamaya və aça bilmir və romanın üstün və zəif tərəfləri bununla müəyyən edilir. Kitabın sonunda yetkinləşmiş qəhrəman dünyanı "Mələk"dəki Yudjinin demək olar ki, gördüyü kimi dumanlı görür. Romanın bütün mürəkkəb problematikasının həllini qəhrəman yarıabstrakt

---

[8] Жажда творчества. М.: Прогресс, 1989, 405 с.

məhəbbətdə tapır ki, bu da Vulf üçün şübhəsiz geriyə addımdır. Kitabın materialının əhəmiyyətli hissəsi onun yekun nəticəsindən qat-qat ciddidir.

Yazıcı qəhrəmanın olduqca az bir qismini, ən əsası isə onun şüurunda heç bir prinsipial dəyişikliyin baş vermədiyi dövrü əhatə etmək üçün həddən artıq çoxlu müxtəlif qəbildən ola materialdan istifadə etmişdir. Ümumi planda Vulfun "Zaman və çay haqqında" yaradıcılığı gələcək təsvir üçün sanki bir etüd rolunu oynayır. Vulfun nə vaxtsa belə bit təsvir canlandıracağı məlum deyil, lakin onun kritisizminin kəskinləşməyi buna ümid verir.

İkinci fəsil – "İtirilmiş zamanın axtarışında: Tomas Vulfun simvollar aləmi" – iki alt fəsildən ibarətdir.

Birinci alt fəsil "Ən son elmi nailiyyətlər əsasında Tomas Vulfun məkan və zaman konsepsiyası" adlanır. XX əsr insan şüurunda və onun həyatında, insanın məişəti və ideallarında əks olunmasında qeyri-adi effekt yaratdı. Kainat haqqında düşüncələrdə təsəvvür köklü surətdə dəyişdi. İnsan şüurunda, onun dünyanı qavrayışında əsaslı dönüş başladı. Tətbiqi elmlərin inkişafı sürətli artımı humanitar fənlərin transformasiyasına böyük təsir göstərdi, onların əksəriyyəti XXI əsrin astanasında təbiət və humanitar elmlərin sintezinə can atmış oldu. XX əsin başlanğıcı nihilizmin və ideal və dəyərləri uzaq XVIII əsrdə qalan və irrasional və əlçatmaz XX əsr şəraitinə alışa bilməyən insanların ümidsizliyinin yetişdiyi əlverişli mühit oldu. Və bu gün inqilabi elmi kəşflərin şahidi olduqdan sonra, biz bəşəriyyət bir sıra texnoloji sarsılmalara məruz qaldığı nəticəsinə gəlirik. Dini paradiqmanın elmi paradiqma ilə əvəzlənməsi bəşəriyyət tarixində[9] uzun minilliklər mövcud olmuş dünyanın esxatoloji modelinin dağılmasının əsas səbəbinə gətirib çıxardı. XXI əsr insanın yeni dini olmağa qabil olmalı olan elm bu gün insanla kainatın harmoniya nisbətini təmin edəcək vəziyyətdə deyil. əksinə, "yeni insanın" elmi dünyagörüşü insanın reabilitasiyasına can atması ilə, onun kosmik ritmlərə aid olmasının elan etməklə birlikdə dünyanın antroposentrik mənzərəsinin dağılmasına gətirib çıxartdı. Yeni insan nə dərrakədə, nə iradədə, nə hissiyyatda oriyentir tapa bilmirdi. XX əsrin insanı xarici aləmi özünün praktik ehtiyaclarına tabe etməyə çalışaraq onu öz-özülə qarşı-qarşıya qoydu. XIII əsrin insanlarının əsas həyati prinsipi olan vəhdət XX əsrin çoxluğu ilə əvəz olundu.

---

[9] Тихоплав В.Ю. Физика веры. Санкт-Петербург: Весь, 2004, 256 с.

Yeni elmi konsepsiyalar sayəsində fundamental elmlərdə, elə bil ki, cəmiyyətdə baş verən parçalanma və ikitirəlik əvəzinə kompensasiya olaraq əsl mənada elmi-informasiya partlayışı baş verdi. Kosmos bizə öz sirlərini açdı. Bir-birinin ardınca dinin, xüsusilə də ezoterikanın əsas müddəaları sübut edən kəşflər edildi. Yeni elmi nailiyyətlər ona gətirib çıxardı ki, alimlərin beynində zərif (gözə görünməz) aləmin müasir elmi biliklərin sahəsinə daxil etmək fikri yarandı.

İnsanı əhatə edən həllolunmaz problemlərdən ikisi - gözəgörünməz aləmin problemi və ölüm problemi xüsusi mövqedə durur.

Gözəgörünməz aləm adi nöqteyi-nəzərdən aydın deyil, adi dərk etmə vasitələri üçün imkansızdır, lakin bu o deməkdeyil ki, o mövcud deyil. Gözəgörünməz aləmin mövcudluğu yeni eli konsepsiyaların köməyi ilə tam təsdiq olunur.

90-cı illərin əvvəllərində Rusiya fizikləri beşinci fundamental qarşılıqlı təsir – informasiya kəşf edildi və zərif aləmdə informasiya daşıyıcısı - torsion sahə [10] tapıldı. Bu Rusiya nəzəriyyəçi (hazırda akademik REEE) Q.İ. Şipov bütün məkanı dələn universal mühit olan fiziki vakuumun konsepsiyasını əsaslandırması sayəsində mümkün oldu.

Fiziki vakuum və torsion sahələri konsepsiyasını əsaslandıraraq, nəzəri fizika ali Şüur – Mütləq – Allahın qəbul edilməsi zərurətinə gəldilər.

Müasir fizikanın məlumatlarına əsasən, psixi enerji aləmi (zərif aləm) yüksək tezlikli rəqslər şəklində paylanmanın yüksək sürətinə malik və hər şey haqqında məlumatı saxlamağa qadir məkan – zaman sahələrində (torsion sahələr) yerləşmişdir. Əvvəlki, atlantların daha inkişaf etmiş sivilizasiyası dövründə qədim dini mənbələrin məlumat verdiyi kimi, informasiya – enerji parçası (Ruh) daima Kosmik şüurla əlaqə saxlayır.

Müasir elmi baxışlara əsasən, şüuru informasiyanın inkişafının ən ali forması – informasiya yaradan kimi başa düşmək lazımdır. Fiziki nöqteyi-nəzərindən şüur sahə materiyasının xüsusi formasıdır.

Şüur və materiya torsiyon sahələri səviyyəsində ayrılmaz mahiyyətlərdir. Bu mövqedən aydın olur ki şüur bir tərəfdən bütün sahələri bütün maddi aləmi, digər tərəfdən isə zərif aləmin bütün səviyyələrini birləşdirən vasitəçi qismində çıxış edir.

---

[10] Впервые слово «торсионный» было использовано французским математиком Эли Картаном. Ему принадлежат слова: «В природе должны существовать поля, порождающиеся вращением».

İnsan orqanizmi ətraf aləmin müxtəlif informasiya axınlarının qəbuledicisi və analizatorudur, insan özü isə informasiyanın daşıyıcısıdır.

Alimlər artıq çoxdan müəyyən ediblər ki, fiziki aləmdə informasiyanın maddi daşıyıcısı elektromaqnit dalğalarıdır. Elektromaqnit spektri fiziki sistemlər, o cümlədən canlı orqanizmlər arasında informasiyanın qəbulu və ötürülməsini həyata keçirən özünəməxsus dildir və buradan belə nəticə hasil olur ki, insan dünyanı hiss orqanları vasitəsilə dərk etmə prosesində elektromaqnit şüalanmasında kodlaşdırılmış informasiyanı qəbul və təshih edir ki, bu da Tomas Vulfun yaradıcılığında xüsusilə aydın şəkildə müşahidə olunur. Vulf zamanın torunu açmağa və onu hər şeyin ilkin səbəbinə qaytarmağa qabil olan Vahid Kosmik Şüur haqqında itirilmiş yaddaşı bərpa etməyə çalışmışdır.

İkinci fəslin "daş, yarpaq, qapı haqqında" adlı ikinci alt fəslində Vulfun əsas qlobal mövzuları – Yaddaş, Taleh, Zaman nəzərdən keçirilir. Yazıçı öz yaradıcılığının xarakteristikası üçün "parça" obrazına müraciət edir: "Onun parçası həyatın bütün hörümçək torunun möhkəmliyini və mürəkkəbliyini əldə edənə qədər hekayənin sapları çoxalırdı, uzanırdı, bir – birinə qarışır və bir-biri ilə kəsişirdi". Obraz parça haqqında onun mərkəzi ideyasına analoji olan tərkib hisslərinin əsas xüsusiyyətlərindən birini xarakterizə edir, onlar kəsişir və yeni bir vəhdət yaradırlar: Zaman – yaddaş, Zaman – Tale, Yaddaş – Tarix. Mətndə danışan simvollar üç mövzu - *qatar, çay, zəng, yarpaq, külək, labirint, hörümçək toru, sap, toxucu dəzgahı - onlardan* hər birinə aid edilə bilər.

Vulf dağılmış əlaqəni keçmişə müraciət edərək tapmağa çalışır. Bu "Ey mələk, evinə nəzər sal" adlı romanında xüsusilə aydın səslənir. "Bizim hər birimiz – onun saymadığı hesabsız cəmləmələrin yekunudur: bizi gecənin çılpaqlığına çatdırın və siz görəcəksiniz ki, dörd min il bundan qabaq Kritdə başlanan məhəbbət dönən Texasda son çatdı. Bizim süqutumuzun toxumaları səhrada çiçək açacaq, bizim şəfamızın aleksini dağın zirvəsində bitir. Hər an – qırx minilliklərі bəhrəsidir. Tez keçən günlər, milçəklər kimi vızıldayaraq sonsuzluğa doğru gedir və hər an – bütün zamanlara açılmış bir pəncərədir"[11].

"Mən kiməm? Haradan gəlmişəm? Haraya gedəcəyəm? Burada nə qədər qalacam". Bütün dövrlərdə insanlar özlərinə belə suallar verirlər.

---

[11] Вулф Т. Взгляни на дом свой, ангел. М.: Художественная литература, 1971, 668 с.

Dahi ispan rəssamı Qoyyanın "Azman" rəsmində ağac tirində oturan və ay və ulduzlara baxan nəhəng çılpaq vəhşi təsvir olunmuşdu. Onun gözləri lal suallarla doludur. Vulf da bizə bu azman kimi görünür.

Tomas Vulfun yaradıcılığında zaman özünün iki əsas tipi – xətti və tsiklik tiplərlə təmsil olunmuşdur. Bu təkcə çox formalı semantik variantlarda deyil, həm də simvolikada təzahür edir. Çayın və qatarın simvolları – çayın yatağı və dəmir yol xətti – xətti zamana, hörümçək toru simvolu tsiklik zaman ideyasını ifadə edir.

Vulf üçün "qaranlıq zaman tapmacasını tapmaq kainatın mövcudluğunun mənasını anlamaq, həyatın və ölümün dixotomiyasına üstün gəlmək deməkdir.

Bəşəriyyətin dünyaya olan çox əsrli rasional – düşüncəli dayağı onu XX əsrin sonunda insanın fəaliyyətini bütün sahələrində çoxlu sayda mürəkkəb və demək olar ki həllolunmaz məsələlərə gətirib çıxartdı. Yeni paradiqmanın yaradılmasının zərurəti meydana çıxdı. Elmin yeni paradiqması insanın və onu əhatə edən mühitin ümumi və ayrılmaz əlaqəsinin müəyyən edilməsində, onlar arasında səbəb – nəticə əlaqələri vasitəsilə həyata keçirilən enerji – informasiya mübadiləsinin mövcudluğundan və varlığın əsas kateqoriyalarında: Zaman, Məkan və qarşılıqlı təsir və yeniləşmənin həlledici amili kimi insan şüuru üzərində qurulur.

Səbəbiyyət nəzəriyyəsi insan və səbəb arasında yaranan səbəb və nəticə əlaqələrini mexanizmini öyrənilməsinə yönəlmişdir. Dünyada heç nə izsiz itmir – əgər vəziyyəti formalaşdıran səbəb mövcuddursa, o yoxa çıxa bilməz. İnkişaf edən səbəb öz inkişafının əvvəlində informasiya xarakteri daşıyan və fikri vasitəsilə dərk edilən və yeniləşə bilən enerji selini formalaşdıran vibrasiyadır.

Səbəb istənilən nöqtədə, zamanda, insan bədəninin daxilində və xaricində yazıla bilər. Səbəblərin yeniləşməsi yalnız Vəhdətin mənəvi planında və insanın mənəvi ruhunda mümkündür. Bunun üçün insan inkişafın əsas aspektlərini: inam, dərk etmə, yaradıcılıq və yolu əhatə etməlidir.

Qəhrəmanın zamana münasibətdə hərəkətləri iki arzu ilə müəyyən edilir: birincisi – zamanın axarını geriyə çevirmək, ikincisi – zamanın axarını dayandırmaq.

Zamanın axarını necə geriyə çevirmək olar?

Birinci dəfə bu Yudjin Qrantın həyatında kənar qüvvələrin sayəsində baş verir. Benin ruhun real aləmə daxil olaraq onun parametrlərini pozur və

dəyişdirir, yeni məkan və zaman kontiniumu[12] yaradır. O meydana çıxdıqda ətrafdakı sahə daralır, zaman bir anlıq donur, daha sonra geriyə axır.

Yudjin özünün və Benin meydanı keçən minlərlə obrazını görür: itirilmiş zaman qayıtmışdır. Yudjinin gözləri qarşısında yox olmuş mədəniyyətlər – yeddiqapılı "Fiv, Davlid və Fokid məbədləri və bütün Enotriya", inklərin mədəniyyəti, Knos sivilizasiyası, Menfis hökmdarlarının sərdabələri canlanır. Bu təcrübə Yudjinin gözlərini açır, ona yoluna davam etməyə güc verir.

Üçüncü fəsil "şəxsiyyətin keçirdiyi narahatlıqlar prizmasından yeni Amerikanın kəşfi" iki alt fəsildən ibarətdir. Birinci alt fəsil "Vulf – humanist ideyaların carçısı kimi" adlanır. Bu alt fəsildə yazıçının Hitler rejimi dövründə yaşadığı əsas humanist fikirlər tətbiq edilir. Tarixi əlverişsiz şəraitin gərginləşməsi Vulfda insan təcrübəsinin ümumiliyini hissini gücləndirdi. Onun təbirincə desək yeni vəhdət tsiklinin öyrənilməsi arzusunda özünü büruzə verdi, çünki gəncliyə xas olan öz bədii vergisi ilə fəxr etmək xüsusiyyəti yazıçını artıq ruhlandırmırdı. Onun otuzuncu illərin ortalarında irəli sürdüyü epiklik tələbi amerika xalqının vahidliyi uğrunda mübarizənin zəruriliyinin qəbul edilməsi idi. Parçalanma qüvvələrinə qarşı duruş gətirmək kimi yaradıcılıq arzusu yazıçı tərəfindən o dərəcədə kəskin yaşanırdı ki, hətta Sinklir Luis 1943-cü ildə onu XIX əsrin ikinci yarısının rus ədəbiyyatının "ümumbəşəri xeyirxahlıq": "Vulf ... Şimali Karolinadan olan rusdur". Romanın finalı – bu özünəməxsus şəkildə keçmişlə vidalaşmadır". Buna yazıçının vəsiyyətnaməsi kimi baxmaq olar.

Üçüncü fəslin "Qırmızı otuzuncuların epoxası: evə qayıdış yoxdur" adlı ikinci alt fəslində yazıçının Amerikaya münasibətdə ictimai və vətəndaşlıq mövqeyi tədqiq edilir. Müharibədən sonrakı ilk onillikdə "özündənrazı Amerika" narazı, etirazedici oldu. 30-cu illər milli mədəniyyət və ədəbiyyatın görkəmli dövrü idi: onları bəzən "ac", "sürətli", "qorxunc" adlandırırlar, lakin daha tez-tez və hər şeydən uğurlu – "qırmızı otuzuncular adlandırırlar. Onilliyin döyüşkən ruhu o dövrdə yaradılmış bir çox əsərlərdə hiss edilir. O dövrdə tarixdə ilk dəfə olaraq milyonlarla amerikalı, o cümlədən mədəniyyət ustaları dərketmə və dünyanın dəyişdirilməsi yolu görərək elmi sosializmə müraciət etdilər. Tənqidçilər

---

[12] Шогенцукова Н.А. Триединство: Время-Память-Судьба. М.: Наследие, 1995, 232 с.

20-ci illərlə müqayisədə 30-cu illərdə yazıçı marağının Freyddən Marksa doğru dəyişməsi baş verdi. "Qırmızı onilliyin" yazıçıları şəxsiyyətin qəddar tarixi determinə olunmasından çıxış edirdilər, onlar ədəbi qəhrəmanın sosial-psixoloji, peşəkar, sinfi cəhətlərinin vurğulayırdılar, onları əmək fəaliyyətində, mənəvi, ruhi inkişafda olan insan cəlb edirdi. Milyonlarla həmvətəninin taleyinə aidiyyətinin daha da hiss etməkdə olan bir çox yazıçıların mövqeyi dəyişir.

Vulfun yaradıcılığı və ilk növbədə onun "Evə qayıdış yoxdur" romanı "qırmızı otuzuncuların" "yüksək nəsrinin" ən uca təzahürlərindəndir. O dövrün ədəbiyyatının bəzi konservativ tənqidçilərin iddia etdiyi kimi quru didaktikadan, "jurnalizmdən, iqtisadi mexanizmin hərəkətini "təqdim edən" sxematik personajlardan" uzaq olduğunu sübut edir. Vulfun kitablarında lirik, emosional, poetik ab-hava rəhbərlik edir, psixoloji dərinliklər açıqlanır.

Uebberin Amerikaya həsr etdiyi məktubun son sətirləri haqlı olaraq müntəxabat olmuşdur. Vulf Vətəninin əsas düşmənlərindən – insanlar üzərində "kor, heyvani hakimiyyətə" malik olan "amansız eqoizm və acgöz tamahkarlıqdan" söz açır. Müəllif tez-tez nəzərlərini bəşəriyyətin ənənəvi humanist idealları istiqamətində yönəldir. Onun nəsrinə Uitmendən irsən keçmiş güclü nikbinlik xasdır. Bu hiss yazıçının poetik misrasını xarakterizə edən təntənəli, bibliya gərginliyinə malik ritorikaya keçir.

Dissertasiya işinin sonunda tədqiqatdan çıxan nəticələr var. Burada işin əsas müddəaları və nəticələri formalaşdırılmışdır. Burada milli ədəbiyyat kontekstində avtobioqrafizmin əsas xüsusiyyətləri aşkar edilmişdir. Müəllifin avtobioqrafizmi ilə onun bədii təxəyyülü arasında daxil əlaqə öyrənilmişdir. Vulfun romanının poetikasının realizm, romantizm, naturalizm və modernizm elementlərini özündə əks etdirən əsas əlamətləri əks etdirilmişdir. Vulfun təfəkkürünün fəlsəfi düşüncə tərzini ifadə edən üslub qaydaları, habelə yazıçının bütün yaradıcılığından qırmızı xətt kimi keçən simvollar (ev, yarpaq, qatar və s.) problemləri öyrənilmişdir. Alim fiziklərin son tədqiqatları bazasında məkan və zamana aid ezoterik, habelə səbəb və nəticə əlaqələri məsələləri tədqiqi edilmişdir.

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı nəşrlərində əks olunmuşdur:


1. В поисках утраченного времени // Elmi axtarışlar, ADU, 2004, № 12, s. 45-49
2. Озерная школа в романтизме // Elmi Xəbərlər, ADU, 2002, № 3, s. 115-117
3. Идея самоотверженной любви в романах Ф.С. Фицджеральда «Ночь нежна» и «Великий Гэтсби» // Elmi Xəbərlər, ADU, 2002, № 3, s. 117-120
4. Томас Вулф писатель 30-х годов // Elmi Xəbərlər, ADU, 2003, № 1-2, s. 229-233
5. Томас Вулф и Уильям Фолкнер – писатели одного поколения // Dil və Ədəbiyyat, BDU, 2006, № 1-2, s. 88-90
6. Мир символов Томаса Вулфа // Современная наука, ДГПУ, г. Махачкала, 2007, Вып. № 7, s. 208-213
7. Wolfe studies in Azerbaijan: My acquaintance with the work of a great American writer // The Thomas Wolfe Review, North Caroline, Vol. 31, 2007, s. 140-143

Riza Alikhan Khalilov

# THE EMBODIMENT OF AMERICAN REALITY OF THE XX CENTURY IN THE CREATIVE ACTIVITY OF THOMAS WOLFE

## Summary

The thesis "The Embodiment of American reality of the XX century in the creative activity of Thomas Wolfe" is dedicated to the creativity of an outstanding American writer Thomas Wolfe.

The thesis consists of the introduction, three chapters, conclusion and the list of references.

The first chapter called "The realization of the esthetic and artistic ideas of Thomas Vulf" is dedicated to peculiarities of autobiographic genre the context of American literature as well as problems of Eugene Gant's national self-conscience origin.

In the introduction the actuality of the subject and the research is well-grounded, the scientific, theoretical and practical significance, aims and goals as well as methods of research are defined.

The second chapter called – "In search of a lost time: Vulf's world of symbols» is dedicated to the symbols which run all through Vulf's works. The investigation of Wolfe's concept of time and space in the light of the latest scientific studies.

The third chapter – Discovery of a new America through the prism of personal emotional experience reflects humanistic experience of the author. It is also a fighting of American people for the unity of nation. The author strives for the revival of humanistic ideals. His literary prose is full of Whitman optimism. All this characterize the poetic style of the writer.

Generalization of results of study is given in the conclusion.